# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

**Bakı şəhəri** **№ 261/3** **14 aprel 2014-cü il**

**Keyfiyyətə nəzarət qrupu rəhbərinin və keyfiyyətə nəzarəti həyata keçirən müfəttişlərin maddi həvəsləndirilməsinə dair**

Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının "Auditor xidmətinin keyfiyyətinə nəzarətin müasir vəziyyəti və onun yaxşılaşdırılması üzrə təxirəsalınmaz tədbirlər haqqında" 2015-ci il 22 yanvar tarixli 260/2 saylı qərarının icrasını təmin etmək, auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə yoxlamaların təşkili, aparılması və nəticələri, habelə keyfiyyətə nəzarətin yekunlarından irəli gələn tövsiyələrin auditorlar tərəfindən yerinə yetirilməsi sahəsində şəffaflığa nail olunması, ictimai nəzarət işini daha da yaxşılaşdırmaq üçün keyfiyyətə nəzarəti həyata keçirən müfəttişlərin və keyfiyyətə nəzarət qrupunun rəhbərlərinin maddi həvəsləndirilməsi məqsədilə Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə yoxlamaların səmərəli təşkili və keyfiyyətlə aparılmasına nail olunması məqsədilə keyfiyyətə nəzarəti həyata keçirəcək müfəttişlərin və keyfiyyətə nəzarət qrupu rəhbərlərinin maddi həvəsləndirilməsi təcrübəsinin tətbiqi məqsədəmüvafiq hesab edilsin.
2. Keyfiyyətə nəzarət Komitəsinin keyfiyyətə nəzarəti həyata keçirəcək müfəttişlərinin və keyfiyyətə nəzarət qrupunun rəhbərinin mükafatlandırılması aşağıdakı kimi həyata keçirilsin:
   - Keyfiyyətə nəzarət qrupunun rəhbəri üçün – 250 manat;
   - Keyfiyyətə nəzarət qrupunun müfəttişi üçün – 200 manat.
3. Keyfiyyətə nəzarət Komitəsinin keyfiyyətə nəzarəti həyata keçirəcək müfəttişlərinə və keyfiyyətə nəzarət qrupunun rəhbərinə mükafatın verilməsi keyfiyyətə nəzarət yoxlaması başa çatdıqdan sonra Keyfiyyətə nəzarət Komitəsinin və Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat idarəsinin birgə təqdimatına uyğun olaraq Palata sədrinin əmrinə əsasən icra olunur.
4. Bu qərarın mətni Palatının internet səhifəsində yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**